**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi və Azərbaycan Respublikasının Gənclər Fondu arasında birgə**

# ƏMƏKDAŞLIQ MEMORANDUMU

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi və Azərbaycan Respublikasının Gənclər Fondu (bundan sonra "Tərəflər" adlandırılacaq) arasında bağlanmışdır.

Tərəflər bərabərhüquqlu və qarşılıqlı fayda və qarşılıq prinsiplərə əsaslanan gənclərin məşğulluğunun artırılması, onların yeni peşələrə sahib olması, əmək bazarında rəqabətə davamlılığının artırılması, işəgötürənlərlə, işaxtaranların (həssas kateqoriyalardan olan gənclər) əlaqələndirilməsini və s. mövzularda birgə tədbirlərin keçirilməsi istiqamətində əməkdaşlığı inkişaf etdirmək məqsədilə;

Bu Memorandumun məqsədinin qarşılıqlı maraq kəsb edən sahələrdə uğurlu, faydalı və ikitərəfli əməkdaşlığın qurulmasının qarşılıqlı niyyətə əsaslandığına əmin olaraq;

aşağıdakılar barədə razılığa gəldilər:

## Maddə 1

## Əməkdaşlıq sahələri

Tərəflər öz səlahiyyətləri daxilində işaxtaran və işsiz, habelə, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən gənclərin məşğulluğunun artırılması, onların yeni peşələrə sahib olması, əmək bazarında rəqabətə davamlılığının artırılması, lakin onlarla məhdudlaşmayan sahələr üzrə əməkdaşlıq edirlər.

## Maddə 2

### Əməkdaşlıq formaları

Tərəflər qarşılıqlı şəkildə razılaşdırılmış səviyyələrdə, zəruri olduğu təqdirdə, əlaqələrin, mübadilələrin və əməkdaşlığın təşviq və təmin edilməsi məqsədi ilə aşağıdakı formalarda əməkdaşlıq edirlər:

a) - sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən gənclər üçün əlavə iş yerləri və sosial müəssisələr yaradılmasına marağın artırılması müxtəlif xarakterli həvəsləndirici (təşviqedici) tədbirlərin, o cümlədən proqram və layihələrin həyata keçirilməsi;

b) Tərəflərin müvafiq ekspert və peşəkarlarının, habelə ən qabaqcıl təcrübələrinin mübadiləsi;

c) qarşılıqlı bilik, məlumat və təcrübə mübadiləsi;

ç) Tərəflərin əməkdaşlarının müntəzəm işgüzar görüşləri;

d) fikir mübadiləsinə və qarşılıqlı razılığa şərait yaradan məsləhətləşmələr və müzakirələr;

e) maarifləndirici tədbirlərdə iştirak;

ə) vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə birgə ictimai tədbirlər keçirmək.

## Maddə 3

### Əməkdaşlığın həyata keçirilməsi

Tərəflər qarşılıqlı şəkildə razılaşdırılmış səviyyələrdə, aşağıdakı formalarda əməkdaşlıq edirlər:

a) Tərəflər birgə əməkdaşlıq çərçivəsində həyata keçirdikləri tədbirlər, habelə proqram və layihələr barədə qısa hesabatları qarşı tərəfə təqdim edir;

b) Tərəflər arasından tədbirlərin, habelə proqram və layihələrin nəzərdə tutulan formada və yüksək səviyyədə keçirilməsi, hazırlıq işlərinin aparılması üçün nümayəndələr təyin edirlər.

## Maddə 4

## Əlavələr və dəyişikliklər

Tərəflərin qarşılıqlı razılığı ilə bu Memorandumun hər hansı əlavələr və dəyişikliklər edilə bilər. Belə əlavələr və dəyişikliklər bu Memorandumun ayrılmaz tərkib hissəsi olan ayrıca protokollar formasında rəsmiləşdirilir və bu Memorandumun 5-ci maddəsinin müddəalarına uyğun olaraq qüvvəyə minir.

## Maddə 5

## Qüvvəyəminmə, müddət və ləğvetmə

Bu Memorandum imzalandığı gündən qüvvəyə minir və 2 il müddətinə qüvvədədir. Tərəflərdən hər birinin Memorandumun qüvvəsinə xitam verilməsi niyyəti haqqında göndərdiyi yazılı bildirişin digər Tərəfdən alındığı tarixdən qüvvədən düşmüş hesab edilir.

Bu Memorandumun ləğv edilməsi, belə ləğvetmədən əvvəl ona əsasən başlanılmış layihələrin və ya proqramların həyata keçirilməsinə təsir etmir.

Bu Memorandum çərçivəsində Tərəflər arasında yazışmalar yazılı ( sənəd mübadiləsi) və və ya elektron formada (email vasitəsilə) həyata keçirilir.

Bu Memorandumu imzalayan Tərəflər bu sazişin yalnız yuxarıda təsvir olunan əhatə dairəsi ilə məhdudlaşdığını və imzalayan Tərəflərin heç biri üçün hər hansı əlavə öhdəlik yaratmadığını qəbul edirlər.

Bakı şəhərində 2021-ci il "___" yanvar tarixində hər biri Azərbaycan dilində eyni hüquqi qüvvəyə malik olan iki nüsxədə tərtib edilmiş və imzalanmışdır.

**Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin Sədri**

**Mustafa Abbasbəyli**

MİY

**Azərbaycan Respublikasının Gənclər Fondunun İcraçı direktoru**

**Fərid Cəfərov**

MİY